# Gender psixologiyası və onun sosial-psixoloji təhlili

**Aydan Dadaşova**
*Bakı Dövlət Universitetinin dissertantı*
**E-mail:** aydan.dadasova93@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos.E.A. Piriyeva,
psixol.ü.f.d. İ.M. Məmmədli

**Açar sözlər:** gender psixologiyası, gender bərabərliyi, gender asimmetriyası, təhsil, gender yanaşması

**Ключевые слова:** гендерная психология, гендерное равенство, гендерная асимметрия, образование, гендерный подход

**Key words:** gender psychology, gender equality, gender asymmetry, education, gender approach

Müasir dövrdə gender bərabərliyi, gender asimmetriyası, gender münasibətlərinin formalaşması dünyada olduğu kimi, Azərbaycanda da olduqca aktual və vacib məsələlərdən biridir. Gender psixologiyası insanların cinsi mənsubiyyətindən asılı olaraq, sosial davranışını determinə edən identikliyinin xarakteristikasını öyrənən psixologiyanın bir sahəsidir [1, s. 47]. Gender psixologiyası differensial psixologiya ilə inkişaf psixologiyasının qovşağında və əsasında formalaşmış psixoloji bilik sahəsidir.

Dünyada qadın və kişilərin sosial xarakteristikalarının nəzərə çarpan müxtəlifliyi və bioloji xarakteristikalarının oxşarlığı belə nəticə çıxarmağa imkan verir ki, bioloji cins insanların sosial rollarının fərqlərinin izahı ola bilməz. Gender anlayışı, bioloji cinsindən asılı olaraq, insanlara cəmiyyət tərəfindən təlqin edilən sosial və mədəni normaların məcmusunu ifadə edir. Qadın və kişilərin psixoloji xüsusiyyətlərini, davranış modellərini, peşə və fəaliyyətini müəyyən edən bioloji cins deyil, sosial-mədəni qaydalardır.

Müasir elmdə sosial və mədəni proseslərdə və hadisələrin analizində gender yanaşmalardan çox geniş istifadə olunur. Gender yanaşmaların bir neçə istiqaməti mövcuddur. Bu gün sosial və humanitar elmlər tərəfindən qəbul edilmiş əsas gender nəzəriyyəsi genderin sosial təşkil olunması nəzəriyyəsidir. Genderin sosial təşkili nəzəriyyəsi iki postulata əsaslanır:

1. Gender-sosiologiya, əmək bölgüsü, gender rollar sistemi ailə və kütləvi informasiya vasitələrinin köməyi ilə yaradılır.
2. Gender həm də individlərin özləri vasitəsilə — onların şüur səviyyəsində (gender identifikasiyası) yaranır. Bu nəzəriyyə gender eyniyyəti, gender ideologiyası və gender rolları anlayışlarında geniş istifadə edir [2, s. 106].

Gender asimmetriyası müxtəlif sahələrdə hər iki cinsin qeyri-mütənasib irəli sürülmüş sosial və mədəni roludur [3, s. 170].

Təhsil sistemi cəmiyyəti formalaşdırır və onlara xidmət edən cəmiyyətlər tərəfindən formalaşır. Təhsil sahəsində gender bərabərliyi daim müzakirələrə səbəb olmuş və öz aktuallığını qoruyub saxlamaqdadır. Təhsil cinsindən asılı olmayaraq, hər kəsə ictimai həyatın müxtəlif sahələrində uğur əldə etmək üçün yol göstərməkdədir. Müasir dövrdə valideynlərin, müəllimlərin digər bir vəzifəsi təhsillə yanaşı cinsindən asılı olmayaraq hər bir fərdi gender mədəniyyətinə malik şəxsiyyət kimi formalaşdırmaqdır.

Müasir dövrdə qadınlara qarşı tətbiq olunan gender əsaslı ayrı-seçkilik, qadağalar və

stereotiplər həm təhsil, həm sosial, həm iqtisadi sahədə müzakirələrə səbəb olur. Eyni peşə sahəsində, qurum, təşkilat və ya şirkətdə bir gender kateqoriyasına aid insanların yuxarı, orta və ya aşağı vəzifələrdə cəmləşməsinə şaquli gender seqreqasiyası deyilir. Şaquli seqreqasiya cəmiyyətdə dərin kök salmış gender bərabərsizliyinin əlamətidir [4, s. 79].

Aydındır ki, insanların inkişafı onların cins və ya gender mənsubiyyətinə əsasən məhdudlaşdırılmamalıdır. Gender bərabərliyi-qadınların və kişilərin bərabər hüquqlu vəzifələri və imkanları deməkdir.

Qeyd etmək lazımdır ki, cinslərin sosial bərabərlik nəzəriyyəsini qəbul etməyənlər və gender konsepsiyasının tənqidçiləri də mövcuddur. Onların əsas arqumenti odur ki, qadın və kişilərin təbiəti fərqlidir və bu fərqlər yalnız fizioloji deyil, psixoloji sahəni də əhatə edir.

XIX əsrin ənənəvi kişi və qadın peşə stereotipləri və etalonları vardı. XX əsrdə bu stereotiplər və etalonlar öz-özünə sadəcə köhnəldi. Qadın nəinki, özünü sadəcə mühəndis və ya sadəcə rejissor rolunda təsdiq etdi, həmdə lider kimi cəmiyyət həyatında önəmli rol oynamağa başladı.

Cəmiyyət həyatında qadının rolu günü-gündən artır. İctimai-siyasi hadisələrdə, xüsusilə qadın təhsilinin sürətlə inkişaf axarında gender problemi əmələ gəlib və sürətlə inkişaf etməkdədir.

Cinslərin davranışındakı fərqlər onların fizioloji və bioloji xüsusiyyətlərindən asılı deyil, daha çox cəmiyyətdə kişi və qadın haqqında formalaşmış təsəvvürlər və stereotiplərlə müəyyənləşir. Bir çox hallarda gender problemi dedikdə daha çox qadınların hüquqlarının pozulması başa düşülür. Bu isə kişilərdə mənfi münasibət yaradır. Əslində isə, gender bərabərliyi dedikdə, həm kişi, həm qadın hüquq bərabərliyini nəzərdə tutulur.

Gender bərabərliyi qadın dünyasının, onun təhsildə, ictimaiyyətdə, ailədə rolunun və cəmiyyətdə tutduğu mövqeyini tənzimləyən amillərdən ən önəmlisi olduğunu nəzərə almaq vacibdir. Gender bərabərliyi qadın dünyasının, onun ictimaiyyətdə rolunun və cəmiyyətdə tutduğu mövqeyini tənzimləyən amillərdən ən önəmlidir.

Gender sistemi cinslərindən asılı olmayaraq, insanlara ünvanlandırılan asimmetrik mədəni qiymətləri və gözləmələri əks etdirir. Sosial normalar zamanla dəyişə bilər, ancaq gender asimmetriyası olduğu kimi qalır. Gender cəmiyyətin sosial stratifikasiyası üsullarından biridir. Gender sisteminin saxlanılması və inkişafında əsas rolu insan şüuru oynayır. Fərdlərin gender şüurunun yaradılmasında, sosial və mədəni stereotiplərin, normaların və təlimatların saxlanması və yayılması vasitəsi ilə baş verir. İnsan doğulandan etibarən gender sisteminin təsir obyektinə çevrilir. Buna misal olaraq uşağa kiçik yaşlarından cinsindən asılı olaraq müxtəlif rəngli paltarların, oyuncaqların alınmasını göstərə bilərik. Elə kiçik yaşlarından hər bir insanda gender stereotipləri formalaşmağa başlayır.

Gender bərabərsizliyi-müxtəlif sosial qrupların cəmiyyətdə qeyri-bərabər imkanlara və davamlı fərqlərə malik olması ilə müşayiət olunan sosial quruluşun xarakteristikasıdır [4, s. 265]. Gender bərabərsizliyi 1980-ci ildə müasir feminist nəzəriyyənin əsası kimi gender anlayışının meydana çıxması ilə sosial və humanitar elmlərin tədqiqatçıları tərəfindən irəli sürülmüşdür.

Genderə dair müxtəlif elmi istiqamətlərdə olduğu kimi psixologiya sahəsində də tədqiqatlar çoxdur. Lakin təhsil sistemini nəzərdən keçirsək görərik ki, gender asimmetriyası, gender münasibətləri, norma və dəyərlər gender mədəniyyəti istiqamətində hələ də problemlər görülməkdədir. Gender mədəniyyətinin inkişafı üçün bir sıra maarifləndirmə işlərinin seçilməsi və tətbiqi olduqca vacibdir. Gender maarifləndirilməsi tədqiqatçılar üçün də əhəmiyyətlidir.

**Məqalənin aktuallığı.** Gender və onun tədqiqi məsələləri müasir dövrün hər bir sahəsində olduğu kimi təhsil sistemində də özünü büruzə verir. Gender tədqiqatları ilk növbədə cinsin sosial psixoloji və sosial mədəni xüsusiyyətləri aspektindən öyrənilməlidir. Gender mədəniyyəti və onun gələcək nəsillərə aşılanması olduqca vacib məsələlər sırasındadır. Bunları nəzərə alaraq, gender və onun sosial-psixoloji xüsusiyyətlərinin araşdırılması zəruridir.

**Məqalənin elmi yeniliyi.** Cəmiyyətin bir-birindən fərqli iki cinsdən ibarət olması, onların oxşar və fərqli xüsusiyyətlərinin təhlili hər zaman mübahisələrə səbəb olmuşdur. Müxtəlif elmi araşdırmalara əsaslanaraq gender münasibətlərinin araşdırılması və onun sosial-psixoloji tərəflərinin üzə çıxarılması mühüm əhəmiyyət kəsb edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Qadın və kişi bərabərliyi probleminin fərdi və sosial aspektləri mövcuddur. İctimai həyatda qadın və kişilərin cinsi fərqləri sosial funksiyaların bölüşdürülməsində əks olunmuşdur və onların möhkəmlənməsində mədəniyyət faktorunun rolu çox böyükdür. Qadın problemlərinin hazır ki dövrdə gender tədqiqatları çərçivəsində geniş şəkildə öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də praktik-psixoloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abasov Ə.S., Mirzəzadə R.S. Genderə giriş: Cəmiyyətdə cinslərin sosial rolları və qarşılıqlı münasibəti problemləri. Bakı: Gender və İnsan hüququ Araşdırma Birliyi (GİHAB), 2004.
2. Ağayeva K.C. Azərbaycanda gender məsələləri. Bakı: Qərb Universiteti, 2014.
3. Əfəndiyeva Ü.Ə. Əsrin gender konsepsiyası. Bakı: ADPU, 2017, 288 s.
4. Бендас Т.В. Гендерная психология: учебное пособие. СПб :Питер, 2009.
5. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 10 oktyabr, 2006.

**А. Дадашова**

## Гендерная психология и её социально-психологический анализ

## Резюме

В современное время гендерное равенство, гендерная асимметрия, формирование гендерных отношений, как и во всём мире, также в Азербайджане является одним из чересчур актуальных и важных вопросов. Гендерная психология в зависимости от половой принадлежности людей является одной из областей психологии, изучающая социальное поведение с определяющей идентичностью характеристики. Гендерная психология совместно с дифференциальной психологией на взаимосвязи и основе развивающейся психологии является сформировавшееся научной областью психологии.

**A. Dadashova**

## Gender psychology and its social-psychological analysis

## Summary

As in the world gender equality, gender asymmetry, development of gender relations are one of the most actual and important issues in Azerbaijan in our modern age. Gender psychology is a part of psychology that studies characteristics of identity which determine social behavior of people depended on their gender. Gender psychology is a psychological knowledge which developed between and based on differential psychology and developmental psychology.

**Redaksiyaya daxil olub:** 16.01.2019